Kordapulovun evi

Vikipediya, azad ensiklopediya

Kordapulovun evi (bolq. *Кордопулова къща*) — Balkanlarda bolqar intibahının ən böyük yaşayış binalarından biri. Melnik şəhərinin şərq hissəsində yerləşir və əsas turistik yerlərindən biridir. Evin yaxınlığında bir ailə kilsəsinin xarabalıqları vardır.

Ev 1754-cü ildə inşa edilmişdir. Tikili varlı yunan tacirləri və şərabçıları olan Kordopulos ailəsinə məxsus idi. (Qeyd etmək lazımdır ki, 1913-cü il İkinci Balkan müharibəsindən əvvəl yerli yunan sakinləri Melnik əhalisinin əksəriyyətini təşkil edirdi). Ev şərab istehsalı, saxlanması və ticarəti üçün istifadə olunurdu.

Ev indi özəl muzey kimi istifadə olunur. Şərab zirzəmilərinə baş çəkmək və şərab dequstasiyasını da daxil olmaqla daim keçirilən turlar vardır[1].

Kordapulovun evi

41°31′23″ şm. e. 23°23′54″ ş. u.

Ölkə	Bolqarıstan
Yerləşir	Melnik
Tikilmə tarixi	1754
Rəsmi sayt	kordopulova-house.com (http://www.kordopulova-house.com/)

Vikianbarda əlaqəli mediafayllar

Mündəricat

- Memarlıq
- Tarixi
- Əhəmiyyəti
- Qalereya
- İstinadlar
- Mənbə

Memarlıq

Evin memarlığı intibah üslubunda hazırlanmışdır. Orijinal şəklindədir və çox yaxşı vəziyyətdədir. Evin bərpası 1974-1980-ci illərdə aparılmışdır. Yeraltı dəhlizlər nisbətən sıx və dardır. Tunelin divarları sikkələrlə örtülmüşdür. Turistlər bir istək edərək, divara bir sikkə yapışdırırlar. Oların düşüncəsnə görə əgər sikkə divara yapışarsa, istək gerçəkləşəcəkdir[1][2].

Tarixi

Kordopulos ailəsinin son nümayəndəsi Manolis, Balkan müharibəsi zamanı ölür. 1912-ci ildə Manolis Bolqarıstan inqilabçısı, Melniki Osmanlı hakimiyyətindən azad edən Yan Sandanskiyə sığınır. 1912-ci ilin oktyabrında üsyançı qüvvələrə əlaqəsi və dəstəyi şübhəsi ilə Manolis Kordopulos şəhəri tərk etmiş

türklər tərəfindən öldürülür. Balkan müharibəsi zamanı Melnik şəhəri əhəmiyyətli bir dağıntıya uğrayır və praktiki olaraq xarabalığa çevrilr. Lakin Kordopulovun evi o dövrdə ciddi bir zərər görmür. Manolisin ölümündən sonra ev Aqnes adlı yerli sakinə miras olaraq qalır. Aqnesin Kordopulovun bacısı, ya da qulluqçusu olması deyilir. Qeorqi Tsintsar ilə evlənən Aqnes evin xanımına çevrilir. Tsinstar ailəsi övladsız olduğundan qardaşı oğlu Cəbraili övladlığa götürürlər. İndi ev Cəbrayılın oğlu Nikolay Paspalevə məxsusdur[2].

Əhəmiyyəti

Kordopulosun ailə evi Bolqarıstanda yüz milli turizm yerlərindən biridir və onların arasında dördüncü yerdədir.

1998-ci ildə Bolqarıstan Mədəniyyət Nazirliyi Kordopulovun evini memarlıq, bədii və tarixi mədəniyyət abidəsi elan etmişdir[3].

Qalereya





İstinadlar

1. Кордопулова къща История (http://www.kordopulova-house.com/index.php?lang=BG&menu=history) (bol.)
2. Достопримечательности Болгарии. Благоевград. Мельник. Дом семьи Кордопулос (http://samsobi.com.ua/index.php/bulgaria/architecture/248-blahoievhrad-melnyk-budynok-sim-i-kordopulos)
3. «Drjaven vestnik» qəzetinin № 25 4 mart 1998-ci il buraxlışı, səhifə 8 (https://dv.parliament.bg/DVWeb/broeveList.faces), (bol.)

Mənbə

- Kordopulovun evinin rəsmi saytı (https://www.kordopulova-house.com)
- «Drjaven vestnik» qəzeti (https://dv.parliament.bg/DVWeb/broeveList.faces)

Mənbə — "https://az.wikipedia.org/w/index.php?title=Kordapulovun_evi&oldid=5160709"

Bu səhifə sonuncu dəfə 21 may 2020 tarixində, saat 00:46-də redaktə edilib.

Mətn Creative Commons Attribution-ShareAlike lisenziyası altındadır, bəzi hallarda əlavə şərtlər tətbiq oluna bilər. Ətraflı məlumat üçün istifadə şərtlərinə baxın.